**Tarix müəllimi** ixtisası üzrə bakalavr hazırlığı mühazirə, məşğələ (laboratoriya), seminar, məsləhət, sərbəst iş, təcrübə və s. formalarda həyata keçirilir. Tədris prosesində şifahi şərh, müsahibə, interaktiv təlim, müstəqil iş, diskussiya, dəyirmi masa, illüstrasiya, tədqiqatçılıq, laboratoriya, praktik iş və digər metodlardan istifadə edilir.

İxtisasın tədrisində Azərbaycan və ümumdünya tarixinin, tarixi hadisələrin mahiyyətinin, səbəb və nəticələrinin; Azərbaycan tarixinin əsas mərhələləri və xronologiyasının; tarixi şəxsiyyətlərin, ayrı-ayrı sivilizasiya və regionların tarixinin; tarix elminin, tarixi biliklərin inkişaf tarixinin əsas xüsusiyyətlərinin; tarixi mənbələrin növləri, yaranma yolları, onlara tənqidi yanaşma mexanizmlərinin; beynəlxalq münasibətlər sistemi, beynəlxalq münasibətlər tarixi, beynəlxalq qurum və təşkilatlar, onların fəaliyyət mexanizminin və beynəlxalq münasibətlərdə rolunun; dünya xalqları, onların soykökü, yerləşmə arealları, maddi və mənəvi mədəniyyətinin əsas xüsusiyyətlərinin; tarixi tədqiqatların müasir vəziyyəti və perspektivlərinin öyrənilməsi kimi məsələlərə xüsusi diqqət yetirilir.

Tarix ixtisası müəllimləri orta məktəblərdə, kurslarda,dövlət idarəetmə orqanlarında, ali məktəblərdə, elmi tədqiqat institutlarında, arxivlərdə, muzeylərdə, mövcud qaydalara riayət olunmaqla orta ümumtəhsil məktəblərində, Azərbaycan tarixinin araşdırılması mərkəzlərində, müxtəlif təhsil və mədəniyyət qurumlarıda, ixtisas dərəcəsinə uyğun gələn müəssisə və təşkilatlarda və s. işləyə bilər, həmçinin təhsillərini ixtisas üzrə magistratura proqramlarında davam etdirə bilərlər.